# Xroniki xəstəlikləri olanlar ilk növbədə peyvənd olunmalıdırlar

***Tədqiqatçılar bəşəriyyətin başı üzərini alan COVID – 19 infeksiyasına qarşı mübarizənin qarşısını almaq üçün ən yaxşı yolun vaksinasiya olduğunu bildirirlər. Ölkəmizdə artıq yanvarın 18-dən etibarən bu prosesə tibb işçilərinin vaksinasiyası ilə başlanılıb. İndiyədək səhiyyə işçilərinin 70 faizinə peyvənd vurulub. Fevralın 8-dən isə yaşı 65-dən yuxarı olan vətəndaşların vaksinasiyası həyata keçirilir. Risk qrupunda olan hər kəs randevu.its.gov.az. saytına daxil olub qeydiyyatdan keçməklə, yaxud yaşadığı, qeydiyyatda olduğu ərazinin sahə poliklinikasına müraciət edərək vaksinasiyadan keçə bilər.***

Təəssüf ki, təhsilli, geniş dünyagörüşünə malik tanıdığım insanlar arasında da peyvənd edilməkdən qorxanlar (ehtiyat etmək yox, məhz qorxmaq) var. Peyvənddən daha çox xroniki xəstəliyi olanlar, allergiyalı insanlar, ürək problemindən əziyyət çəkənlər ehtiyat edirlər.

**Binəqədi rayonundakı 27 saylı şəhər poliklinikasının həkimi, hazırda vaksinasiyada iştirak edən Aynur Kərimova bu barədə dedi:**

– Gəlin, onu da düşünək ki, səhhətində problemi olmayan insan tapmaq çətindir. O ki ola, yaşı 60 –dan yuxarı olsun. Həmin insanlar çox vaxt vaksindən sonra əks-reaksiya yaranmasından və yaxud mövcud xəstəliklərinin kəskinləşməsindən çəkinirlər. Vaksinasiya başlayandan müşahidə etdiklərimə əsasən deyə bilərəm ki, hətta, həmin səbəbləri əsas gətirərək peyvənd olunmaqdan imtina edənlər də var. Lakin peyvəndin üstünlüklərindən xəbərdar olanlar nəinki özlərini, hətta yaşlı ailə üzvlərini də bu prosesə cəlb edirlər. Hətta parkinson xəstələrinə peyvənd edilməsi də heç bir əks-təsir yaratmayıb. Biz özümüz parkinson xəstəsi olan, ərazimizdə yaşayan sakinimizə peyvənd etmişik. Doğrudur, bəzi yayılan məlumatlara görə, COVID – 19 xəstəliyinin gedişində çox gözlənilməyən nəticələr müşahidə edilib, lakin indiyədək həmin xəstəliklə əlaqədar əks-göstəriş yoxdur. Şəkərli diabeti olanlar da xüsusi risk qrupu sayılırlar. Həm onlar, eləcə də xroniki ürək-damar, tənəffüs sistemi xəstəlikləri olanların COVID –19 –u daha ağır keçirə biləcəkləri ehtimal edildiyinə görə birincilər sırasında vaksinasiya olunurlar.

**A.Kərimova vaksinasiyanın əhəmiyyəti barədə danışaraq bildirdi:**

– Təkcə COVID – 19 xəstəliyi zamanı deyil, əvvəllər də peyvəndə münasibət fərqli olub. Bəzi valideynlər övladlarını vaksinasiyadan yayındırmağa çalışıblar. Lakin unutmaq olmaz ki, vaksinasiya yoluxma, ağırlaşma, ölümcül xəstəliklərdən qorunmaq üçündür. Necə ki, illər öncə insanların qarşısında aciz qaldıqları, çox sayda ölümə səbəb olan bəzi xəstəliklər, o cümlədən təbii çiçək, poliomielit, qızılca və digər infeksion xəstəliklərin məhz bu yolla kökü kəsilib, eləcə də bir sıra sonradan yaranmış və yayılmış bəzi yoluxucu xəstəliklərə qalib gəlməyin yeganə yolu vaksinasiyadır. İndi ölkəmizdə tətbiq edilən Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronoVAC" peyvəndi inaktivdir. Bir qədər hamının başa düşəcəyi şəkildə desək, yəni orqanizmə yoluxa biləcəyimizi ehtimal etdiyimiz virusun modeli inyeksiya edilir. İmmun sistemi həmin modeli tanıdığına və ona qarşı müdafiə silahı olduğuna görə, orqanizm virusla qarşılaşan zaman ona hazır olur. Təəssüf ki, bəzi insanlar vaksinasiyadan sonra heç bir qorunma tədbirinə əməl etməyə ehtiyac olmadığını düşünürlər. Lakin bu, qətiyyən doğru deyil. Vaksinasiyanın qoruyuculuğu 60 – 90 faiz arasında dəyişir. Vaksinasiyadan sonra orqanizmdə yaranan



anticisimlərin miqdarı fərdi xarakter daşıyır və yaranan müdafiə sisteminin nə qədər, hansı müddət davam edəcəyi və nə dərəcədə qoruyacağı barədə araşdırma yoxdur. Lakin indi istifadə olunan vaksinin qoruyuculuğunun etibarlılığına və uzun müddət davam edəcəyinə ümid böyükdür. Əgər əhalinin 70 – 80 faizinə həmin peyvəndlər vurulsa, infeksiyanın yoluxma zəncirini qırmaq mümkün olacaq. Tərəzinin bir gözünə COVID – 19 xəstəliyi və onun ağırlaşmalarını, digər gözünə isə peyvəndin ehtimal olunan yan təsirlərini – yəni müvəqqəti qızartı, şişkinlik və başağrılarını qoysaq, əlbəttə ki, vaksin edilmək daha doğru seçim olar. (Hələ bu yan təsir olacaqsa...)

Onu da qeyd edim ki, tibb işçilərinin vaksinasiyası zamanı heç bir əks-təsir müşahidə edilmədi. Bəzi hallarda başağrısı əlamətləri ilə üzləşənlər olub. Kim ki, daha gərgin, daha həyəcanlı və qorxu ilə peyvənd olundu, onlarda başağrısı müşahidə edilirdi. Lakin bunun da həmin gün yaşadığı gərginliklə, yoxsa vaksinin təsiri ilə əmələ gəldiyini ayırd etmək çətindir. İnfeksionistlərin fikrincə, vaksinin yan təsirləri baş verərsə, bu ən çoxu 48 saat davam edə bilər. Məlum olduğu kimi, vaksin dörd həftə fasilə ilə iki doza vurulur. Bunu da mütləq nəzərə almaq lazımdır ki, ilk iynə və yaxud ikinci inyeksiya ediləndən sonra dərhal orqanizmdə infeksiyaya qarşı qoruyuculuq yaranmır. Ümumiyyətlə, peyvənddən təxminən 56 – 60 gün keçəndən sonra virus infeksiyasına qarşı qoruyuculuq formalaşır. Ona görə də vaksinasiya olunanlar mütləq əl gigiyenası, maska taxmaq və məsafə saxlamaq kimi qaydalara əməl etməlidirlər.

**Peyvəndin qoruyuculuğundan söz açan həkim daha sonra vurğuladı:**

– Bir sual digər peyvəndlər vaxtı da həmişə narahatlıq doğurub. Bəzən analar sual verirlər ki, mən uşağı peyvənd etdirmişdim, bəs necə oldu ki, qızılca və ya məxmərəyə yoluxdu? Məsələ burasındadır ki, dünyada yüz faiz qoruyucu xassəyə malik bir peyvənd yoxdur. Vaksin xəstəliyin qarşısında divar kimi dayanmır. Vurulan peyvəndlər xəstəliyi daha yüngül keçirməyə və yaxud heç keçirməməyə səbəb olur. Bu, vaksin vurulandan sonra immun sisteminin verdiyi cavab reaksiyasından asılıdır. Hətta qoruyuculuğu 90 faizdən yuxarı olan vaksinlər vurulan ölkələrdə də peyvənd olunanlar arasında çox kiçik də olsa, məsələn, İsraildə əhalinin 0,02 faizində yoluxma müşahidə olundu. Aparılan peyvənd nəticəsində yoluxma zənciri qırılarsa, bu xəstəlik adi qrip səviyyəsinə enə bilər. Peyvəndin qoruyuculuq müddəti haqqında konkret söz demək çətin olsa da, onun altı aydan az olmayacağı düşünülür. Hətta onun bir, iki ilə qədər davam edə biləcəyi barədə də nikbin proqnozlar var. Peyvənd edilən ölkələrdə alınan nəticələrə əsasən bu barədə müəyyən qənaətə gəlmək mümkün olacaq.

Həkimlə söhbətimizə onu da əlavə edə bilərik ki, vaksin vurduran bir vətəndaş olaraq, həmin poliklinikada bu kampaniyaya məsuliyyətlə hazırlaşıldığını və prosesə ciddi diqqət yetirildiyini müşahidə etdim. Girişdən başlamış, vaksin üçün ayrılmış dəhliz və kabinetlərə xüsusi nəzarət var. Sistemdə adı olmayan sakinlər növbə ilə şəxsiyyət vəsiqələrini təqdim etməklə, bu məqsədlə ayrılmış əməkdaş tərəfindən qeydiyyata salınır və sonra həkim nəzarəti başlayır. Təzyiq, nəbz ölçülür, sakinlə keçirdiyi xəstəlikləri ilə bağlı söhbət aparılır və bundan sonra adı sistemdə görünən şəxs inyeksiya otağına dəvət edilir. Peyvənddən sonra onlar 20 – 30 dəqiqə müddətinə istirahət üçün xüsusi ayrılmış yerə keçirlər. Burada da onlara ayrıca nəzarət edən şəxs tez-tez onların narahat olub–olmadıqlarını, hər hansı yan təsir hiss edib – etmədikləri ilə maraqlanır. Poliklinikada olduğum iki saat müddətində peyvənd edilənlərdən kimdəsə yan təsir yarandığını müşahidə etmədim. Öyrəndim ki, fevralın 9-dan başlayaraq hər gün 20 – 30 nəfərə vaksin vurulur. Söhbətləşdiyim sakinlərin əksəriyyəti könüllü və böyük həvəslə bu prosesə qoşulub.

Onu da qeyd edək ki, hazırda müxtəlif şirkətlərin vaksinləri istehsal olunur və ölkələr seçim etməkdə sərbəstdirlər. Bu günlərdə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Ekspertlər Şurası "AstraZeneca" şirkətinin koronavirus əleyhinə peyvəndinin də tətbiqini tövsiyə edib. Şuranın sədri Alexandro Kravioto peyvəndlə bağlı mətbuatda gedən məlumatlara aydınlıq gətirib. O bildirib ki, COVID – 19 xəstəliyinin yüngül keçirilməsi bu şirkətin istehsal etdiyi peyvəndin təsir gücünə dəlalət etmir və müəyyən edilib ki, peyvənd maddəsi xəstəliyin ağır formalarına qarşı da təsirlidir. ÜST – nın peyvəndlər üzrə mütəxəssisi bildirib ki, nisbətən yüngül keçən xəstəlik gedişində peyvəndin təsir gücünün daha ağır keçən gedişlə müqayisədə aydın hiss edilməməsi bütün peyvənd maddələrinə xas xüsusiyyətdir. Qeyd edilməlidir ki, bu şura "BioNTech/Pfizer" və "Moderna" peyvəndləri üçün də oxşar tövsiyələrlə çıxış etmişdi. Bu tövsiyələr əsasında da ÜST həmin peyvəndlərə təcili istifadə üçün icazə vermişdi. Bu icazə ölkələr üçün hansısa bir xüsusi əhəmiyyət daşımasa da, BMT təsisatlarının həmin peyvəndi alış və tətbiqi üçün əsas şərt sayılır.

Tədqiqatçılar bildirirlər ki, "CoronoVac" peyvəndi COVID – 19 əleyhinə inaktivasiya edilmişdir. Ölkəmiz də Çinin "Sinovac" şirkətinin istehsal etdiyi həmin vaksini alır. Virusa yoluxma riski yüksək olan 60 yaş və daha yuxarı şəxslərin bu vaksinə daha çox ehtiyacı var. Bu vaksin qeyd edilən yaş qruplarında olan şəxslərin təhlükəsizliyinin, dözümlülüyünün və immunogenliyinin artırılması üçün istifadə edilir. "CoronoVac" vaksini Çinin Hebey əyalətinin Renku şəhərində təsadüfi üsulla hər iki gözü kor olan insanlarda kliniki şəraitdə test edilib. Belə ki, vaksin 28 gündə 2 dozada əzələyə inyeksiya edilib. Vaksinasiya prosesində iştirak edən bütün tərəflər – tədqiqatçılar, həkimlər, laborantlar hamısı maskadan istifadə ediblər və ilk dozadan sonra vaksinasiya olunan şəxsin peyvəndə reaksiyası müşahidə edilib. Əvvəlcədən bütün iştirakçılarla razılaşdırıldığı kimi 28 gündən sonra ikinci doza vurulub. Vurğulanır ki, 2020 – ci ilin 22 may və 1 iyun tarixləri arasında birinci faza üzrə 72 nəfərin, 12 – 15 iyun tarixlərində isə ikinci faza üzrə 350 nəfərin üzərində sınaq vaksinlənmə həyata keçirilib. 28 gün ərzində hər hansı əks - reaksiyaya rast gəlinməyib.

Qeyd etmək yerinə düşər ki, artıq Avropa Dərman Agentliyi Rusiyanın "Sputnik V" vaksininin də Avropa İttifaqında istifadəsinə icazə məqsədilə edilən müraciətini rəsmi olaraq qəbul edib. Rusiya Birbaşa İnvestisiyalar Fondunun rəhbəri Kirill Dmitriyev bildirib ki, Avropa İttifaqına vaksinlərin tədarükü yalnız Rusiyadakı vaksinasiya kampaniyası başa çatandan sonra təşkil ediləcək və peyvənd etmək istəyən hər kəs bundan istifadə edə biləcək. Onu da deyək ki, Rusiyada vaksinasiya artıq iki ay əvvəl başlayıb. Serbiyada da peyvənd kampaniyası tam sürətlə davam edir, Belqradda "Sputnik V" ilə yanaşı, mövcud bütün vaksinlər, o cümlədən "Pfizer/BioNTECH" və Çinin "Sinovac" preparatlarının istifadə edilməsinə qərar verilib. İrana "Sputnik V" vaksininin ilk partiyası ötən şənbə günü gətirilib, vaksinasiya paytaxtla yanaşı, bir neçə böyük şəhərdə aparılır.

*Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"*